# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 172** **Bakı şəhəri, 16 iyun 2021-ci il**

***“Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi dövründə sanitariya vəziyyətinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 160 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi dövründə sanitariya vəziyyətinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 160 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 631, № 8, maddə 1096) 1.7-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.8-ci və 1.9-cu bəndlər əlavə edilsin:

“1.8. idman və sağlamlıq-bərpa obyektlərinin fəaliyyəti;

1.9. ibadət yerlərinin fəaliyyəti.”.

**2.** Azərbaycan Respublikasının baş dövlət sanitariya həkimi “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respub-likası Qanununun 3-cü maddəsinin tələblərinə uyğun olaraq aşağıdakı metodiki göstərişləri təsdiq etsin:

2.1. “İdman və sağlamlıq-bərpa obyektlərində koronavirus (COVID-19) infeksiyasının idarə olunmasına dair metodiki göstərişlər”;

2.2. “İbadət yerlərində koronavirus (COVID-19) infeksiyasının idarə olunmasına dair metodiki göstərişlər”.

**3.** Müəyyən edilsin ki, idman və sağlamlıq-bərpa obyektlərinin və ibadət yerlərinin fəaliyyəti bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilən metodiki göstərişlərin tələblərinə uyğun təşkil olunur.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2021.- 17 iyun.- S.17.